

Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

№ 18-19 (7423-7424) ✲ 1933-cü ildən nəşr olunur ✲ Cümə, 7 aprel 2017-ci il. ✲ Qiymәti 40 qәpik

## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 5-də Estoniya Respublikasının dövlət idarəçiliyi naziri, Azərbaycan-Estoniya Hökumətlərarası Komissiyasının sədri Mixail Korbun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 5-də İslam Həmrəyliyi İdman Federasiyasının prezidenti Şahzadə Abdullah bin Mosaad bin Əbdüləzizi qəbul edib.

* * *

Prezident İlham Əliyev aprelin 4-də Serbiya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Neboyşa Rodiçi qəbul edib.

Səfir Neboyşa Rodiç Azərbaycan Respublikası ilə Serbiya Respublikası arasında dostluq münasibətlərinin və əməkdaşlığın inkişaf etdirilməsi və möhkəmləndirilməsi işinə verdiyi töhfəyə görə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2013-cü ildə təltif edildiyi Serbiyanın Ali ordenini dövlətimizin başçısına təqdim edib.

Səfir dövlətimizin başçısına Ali ordenə layiq görülməsi münasibətilə Serbiyanın Prezidenti Tomislav Nikoliçin təbriklərini çatdırıb.

Prezident İlham Əliyev Ali ordenə layiq görülməsi yüksək qiymətləndirib və təbriklərə görə minnətdarlığını Serbiya Prezidentinə çatdırmağı xahiş edib. Dövlətimizin başçısı İlham Əliyev Prezident Tomislav Nikoliçin Azərbaycana səfəri və onunla Bakıda keçirdiyi görüşü məmnunluqla xatırlayıb.

* * *

Aprel ayının 3-də Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.

Həmin gün Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevə "Heydər Əliyev" ordeninin təqdim edilməsi mərasimi olub. Ordeni Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təqdim edib.

Aprel ayının 3-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti cənab Nursultan Nazarbayevin iştirakilə Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında müxtəlif sahələrə dair sənədlərin imzalanması mərasimi olub.

Azərbaycan—Qazaxıstan sənədlərinin imzalanmasından sonra Prezident İlham Əliyev və Prezident Nursultan Nazarbayev mətbuata bəyanatlarla çıxış ediblər.

Prezident İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev Prezidentlərin Birgə Bəyannaməsini imzalayıblar.

* * *

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev martın 31-də Azərbaycan Ordusunun aprel qələbələrinin ildönümü ilə əlaqədar bir qrup hərbçimizlə görüş keçirib. Görüşdə ölkə Prezidenti ordunun qarşısında duran vəzifələr barədə geniş nitq söyləyib.

* * *

Prezident İlham Əliyev martın 29-da BP şirkətinin hasilat, transformasiya və karbon üzrə baş əməliyyat rəhbəri Qordon Birreli və BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counzu qəbul edib.

Dövlət başçısı BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə keçmiş regional prezidenti Qordon Birreli BP şirkətinin hasilat, transformasiya və karbon üzrə baş əməliyyat rəhbəri vəzifəsinə təyin olunması münasibətilə təbrik edib. Qordon Birrelin Azərbaycandakı fəaliyyət illərinin ölkəmizdə enerji sahəsində mühüm inkişafa nail olunduğu dövrə təsadüf etdiyini deyən dövlətimizin başçısı bu illər ərzində böyük nailiyyətlərin əldə olunduğunu vurğulayıb. Qordon Birrelin ölkəmizdəki fəaliyyətinin uğurlu olduğunu bildirən Prezident İlham Əliyev onun Azərbaycan ilə BP arasında əməkdaşlığa öz töhfəsini verdiyini qeyd edib, Qordon Birrelin fəaliyyətinin həm Azərbaycan hökuməti, həmçinin BP rəhbərliyi və şirkətin tərəfdaşları tərəfindən yüksək qiymətləndirildiyini vurğulayıb.

## "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarının su səyahəti Xəzərdən başlandı

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak edib

Aprelin 5-də paytaxtımızdakı Daş Salnaməsi Muzeyində "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarının Xəzərdən başlayan su səyahətinə start verilib.




AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, "Bakı—2017" İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinin sədri xanım Mehriban Əliyeva, ailə üzvləri, Səudiyyə Ərəbistanı Krallığının Şahzadəsi, İslam Həmrəyliyi İdman Federasiyasının prezidenti və Səudiyyə Ərəbistanı Milli Olimpiya Komitəsinin prezidenti Abdullah bin Mosaad bin Əbdüləziz Əl Səud mərasimdə iştirak ediblər.

Bu il mayın 12-dən 22-dək Bakıda keçiriləcək IV İslam Həmrəyliyi Oyunları bütün Azərbaycan, eləcə də İslam dünyası üçün mötəbər idman təntənəsidir. On gün ərzində bütün İslam dünyasının nəbzi Azərbaycanda döyünəcək.

"Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarının Xəzərdən başlayan su səyahətinə həsr olunan mərasim Azərbaycan rəqsləri ilə başlayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə çıxış edib.

*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinin sədri*

### Mehriban ƏLİYEVA:

## "Bakı-2017"nin ruhu paytaxtdan ölkənin bütün guşələrinə yayılacaq

İslam mədəniyyətində mühüm yer tutan ən həyati elementlərdən biri - su Qafqaz dağlarından başlayaraq Xəzər dənizinə qədər Azərbaycanın gözoxşayan mənzərələrində silinməz iz qoymuşdur. "Xəzərdən başlayan səyahət" tədbirlərinin proqramı çərçivəsində "Bakı-2017" İslam Həmrəyliyi Oyunlarının ruhu paytaxtdan ölkəmizin bütün guşələrinə yayılacaq.

Səyahət aprelin 5-də Bakıdan başlamışdır. Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Daş salnamə muzeyində "Bakı-2017" İslam Həmrəyliyi Oyunlarının başlanğıc mərasiminə rəsmən start verib. Sonrakı 37 gün ərzində ölkənin 15 məkanında minlərlə insanı bir araya gətirəcək su mərasimləri və festivalları kimi silsilə tədbirlər böyük xalqımızın çoxşaxəli gözəlliklərini nümayiş etdirəcək. Səyahət mayın 12-də Bakı Olimpiya Stadionunda açılış mərasimi ilə başa çatacaq, çünki həmin tarixdə Azərbaycanın saf suları İslam aləminin 50-dən çox ölkəsini oyunlarda salamlayacaq.

Sizi ölkəmizin zəngin təbii xəzinəsi ilə tanış olmaq, oyunların hər kəsin ürəyində oyadacaq hissləri duymaq üçün Azərbaycan boyu bu səyahətə dəvət etməkdən məmnunam.